# GDU-da Ulu Öndərin yubileyinə həsr edilmiş müsabiqənin növbəti mərhələsi keçirilib



Gəncə Dövlət Universitetində (GDU) Elm və Təhsil Nazirliyinin və Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə təşkilatçılığı ilə keçirilən bədii yaradıcılıq müsabiqəsinin növbəti mərhələsinə baxış keçirilmişdir.

Müsabiqənin münsiflər heyətinin üzvlərinin - Bakı Xoreoqrafiya Akademiyasının prorektoru, Xalq artisti Təranə Muradova, Xalq artisti Gülyaz Məmmədova, Dövlət Musiqili Komediya Teatrının direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, Əməkdar incəsənət xadimi Baba Vəziroğlu və Azərbaycan Milli Konservatoriyasının müəllimi, tarzən Arslan Növrəslinin iştirak etdikləri tədbirdə Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarxın nümayişindən sonra GDU-nun prorektoru Şahin Xurşudov və rektorun baş müşaviri Asif Cavadov çıxış edərək istedadlı gənclərin üzə çıxarılmasında bu müsabiqənin əhəmiyyətindən danışmışlar.

Sonra söz tələbələrə verilmişdir. Onlar xor, rəqs, bədii qiraət və aşıq havaları ifa etməklə qabiliyyətlərini nümayiş etdirmişlər. Münsiflər heyətinin sədri Əliqismət Lalayev və şair Baba Vəziroğlu tələbələrin təqdim etdikləri musiqi nömrələrini yüksək qiymətləndirmiş və tövsiyələrini vermişlər.

Yaradıcılıq müsabiqəsinin növbəti mərhələsində istedadları ilə seçilən tələbələr Bakıda keçiriləcək yekun konsertində iştirak etmək hüququ qazanmışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 19 aprel.- S.12.